BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2018

## JURNALİSTİKA

**UOT 821.111(73)**

# E.HEMİNQUEYİN ERKƏN ƏDƏBİ-TƏNQİDİ PUBLİSİSTİKASI

**N.T.MİRZƏYEVA**
***Bakı Slavyan Universiteti***
***necibemirzayeva1@gmail.com***

*Məqalədə Heminqueyin yaradıcılığına təsir edən erkən jurnalistlik fəaliyyəti araşdırılıb. Xüsusi olaraq qeyd edilir ki, yazıçının ədəbi-tənqidi publisistikası onun üslub və həyata baxışlarını formalaşdırmışdır. Sonralar isə jurnalistika onun yetişkən dövrlərdə yazılmış povest və romanları üçün bir istinadgaha çevrilmişdir. Məqalədə yazıçının Kansas city star" qəzetində fəaliyyəti tədqiq olunur. Heminquey özünün tənqidi publisistikasında milli şüurun kəskin və aktual problemlərinə toxunurdu, insan ləyaqəti, sadə insanların ağır taleyi haqqında yazırdı.*

**Açar sözlər:** publisistika, jurnalistika, peşəkarlıq məktəbi, məqalələr, oçerklər, yazışmalar, "Kansas city star"

Heminqueyin erkən yaradıcılığına təsir edən çoxsaylı amillər içərisində onun müxtəlif qəzetlərdəki fəaliyyətini göstərmək olar. İlkin dövrlərdə jurnalistika onun üçün şagirdlik məktəblərindən biri olmuşdur. Sonralar isə jurnalistika onun artıq yetkinlik zirvəsinə çatan və kamilləşmiş əsərləri üçün, yəni daha yetişkən dövrlərdə yazılmış povest və romanları üçün bir istinadgaha çevrilmişdi. Təsadüfi deyil ki, Heminqueyin erkən müharibəyə qədərki publisistikası, özünün də qeyd etdiyi kimi onu bütün uzun yaradıcılığı boyunca müşayiət etmişdir. O yazırdı: "Mən ölənə qədər qəzetdən çox şeyi öyrənməliyəm. Bir çox "fərasətsizlər" düşünürlər ki, artıq onlar jurnalistika sənətinə yiyələnmişlər. Lakin mən yaxşı bilirəm ki, bu işdə heç kəs mükəmməlliyə nail ola bilmir…" (5, 8).

Həqiqətən də, uzun illər ədəbi-tənqidi publisistika yazıçı üçün onun üslub və həyata baxışlarını formalaşdıran qüvvə olmuşdur. Yazıçının bütün sonrakı fəaliyyətini daha yaxşı dərk etmək üçün onun Missuri ştatının aparıcı orqanı olan "Kansas city star" gündəlik axşam qəzetində işlədiyi dövrlər mühüm əhəmiyyət kəsb edir.

1917-ci ilin yazında Birləşmiş Ştatlar Antanta tərəfindən Birinci Dünya müharibəsinə qoşuldu və bu zaman gənc Heminqueyin qarşısında kollecdə

təhsilini davam etdirməsi və qəzetlərdəki işi arasında seçim etmək problemi yaranır. Səciyyəvi haldır ki, müxbirlik məktəbi ona universitetdə aldığı təhsildən az şey vermirdi. Artıq 30 yaşlarında Heminquey təkcə təcrübəli publisist deyil, həm də dünya şöhrətli yazıçı, bir neçə romanın müəllifi idi.

1917-ci ilin sonunda o, çətin seçim qarşısında qalmışdı: Avropa cəbhəsinə yollanmaq, yoxsa arxa cəbhədə jurnalistika sənəti ilə məşğul olmaq? Müasir tədqiqatlar göstərir ki, gənc Heminquey vətənini qorumağa müharibəyə getməyə can atırdı, lakin fiziki zədələri və çox gənc yaşda olması onun bu arzusuna mane olurdu. Eyni zamanda bu vəziyyət Heminqueyin bütünlüklə və tam olaraq özünü jurnalistikaya həsr etməsinə imkan verirdi.

E.M.Melentyeva "Ernest Heminquey publisistikasının dili" adlı avtoreferatında az tədqiq olunan faktı göstərmişdir: "Ernest "Kansas city star"da işləməmişdən əvvəl "Trapesiya" adlı məktəb qəzetinin müxbiri idi. Lakin bu işi, Heminqueyin öz sözləri ilə desək, ona yazıçılıq sənətinə aid çox zəif və ibtidai biliklər verirdi" (1, 8). Məktəb divarlarından kənara çıxdıqdan sonra o belə bir qənaətə gəldi ki, peşəkar publisist üçün bu biliklər həddindən artıq azdır. Heminquey qeyd edirdi: "Mənim üçün artıq öz fikirlərimi səmimi, doğru, dəqiq, həcmli və yığcam şəkildə ifadə etməyi öyrənmək vaxtı gəlib çatmışdır" (2, 10). Beləliklə, Heminquey üçün belə bir əsl peşəkar publisist məktəbi çox tez bir zamanda "Kansas city star" qəzeti olur. Məhz bu qəzet ona nəinki jurnalistikada, həm də bir çox tədqiqatçıların xüsusi, orijinal, təkrarolunmaz adlandırdıqları onun bir çox romanlarında yeni dəsti-xəttin yaranmasına təkan verdi.

Məntiqi sual meydana çıxır: nə üçün gənc Heminquey məhz bu mətbəə orqanını seçmişdi? Qeyd etmək lazımdır ki, Birləşmiş Ştatlarda XX əsrin birinci yarımilində bir çox qəzet və jurnallar nəşr olunurdu ("Tayms", "Uikli star" və s.). Bu sualın birmənalı cavabı yoxdur, çünki yazıçının özü də bu suala konkret və dəqiq cavab verməmişdir. Lakin biz bəzi faktlara əsaslanaraq bu məqalədə öz versiyamızı irəli sürməyə cəhd edəcəyik.

Düşünürük ki, gənc Heminqueyi "Kansas city star"ın kommersiya xarakteri cəlb edə bilərdi. Biznesmen U.Nelson tərəfindən əsası qoyulan qəzet, Frank Lüter Mottun məlumatına görə "o zamanlar Birləşmiş Ştatlarda ən uğurlu publisistik məhsul idi" (6, 468). Yazıçı başa düşürdü ki, Nelsonun kommersiya istedadı bu qəzetin məşhurluğunun sürətlə artmasına gətirib çıxaracaq. Beləliklə, azad və sərbəst şəkildə işləmək üçün yaxşı imkan yaranacaq. Sərbəst tematika Heminqueyə genişlik, sərbəstlik verir, onun əl-qolunu açırdı. O, öz məqalə, oçerk, yazıları və reportajlarında daha nələr yazmırdı? Cəmiyyətin maraqlarının müdafiəçisi kimi şəhərdə teleqraf xəttinin tikintisini, tramvay xətlərinin genişləndirilməsini təbliğ edən kampaniyalara qoşulur, şəhər hakimiyyətinin korrupsiyasına qarşı etirazını bildirir, saxta pul istehsalçılarının tutulması üçün mükafatlar haqqında yazır, müxtəlif qumarxanalar və fahişəlik hallarına qarşı çıxış edir, park, küçə, bulvarların inşaatı uğrunda mübarizə aparırdı.

Hərbi mövzu bəzi siyasi əhəmiyyətli problemlərə qoyulan qadağalardan

irəli gələrək sərt məhdudiyyətlərlə bağlı idi. Sülh (mülki) mövzusuna gəldikdə isə yalnız redaksiya tərəfindən xüsusi narazıçılıq bildirilməyən mövzuların seçiminə imkan verirlirdi. Heminqueyin ilkin dövrlərdə hərbi mövzudan şüurlu şəkildə yayınmasını görməmək mümkün deyil, lakin buna baxmayaraq, obyektiv olaraq qeyd etməliyik ki, sonralar məhz hərbi mövzu onun publisistikasının əsasını təşkil etdi.

Fikrimizcə, bunun bir neçə səbəbi vardır. Birincisi, yeni başlayan jurnalist zamanla ayaqlaşmağa və "Kansas city star"ın əsas siyasi xəttinə sadiq qalmağa çalışırdı. Bu qəzet Amerikada çox tanınmış olsa da, öz vəzifələrinə görə yerli, regional qəzet idi. Heminquey qəzetin aparıcı jurnalistlərindən biri olsa da, qeyd olunan istiqamət üzrə əsas yazılarına görə onu qərəzkar publisist adlandırmaq daha doğru olardı. İkincisi, uzaqgörən sənətkar özünün ilk publisistik çıxışları ilə sözsüz ki, özünün bütün sonrakı roman yaradıcılığı üçün zəmin yaradırdı. Onun məqalələrinin və qısa reportajlarının bəzi mövzuları sonralar onun iri epik janrda yazdığı əsərlərində istifadə olunmuşdu. Bu səbəbdən Heminqueyin erkən ədəbi-tənqidi publisistikası onun "Üç hekayə və on şer" («Три рассказа и десять стихотворений») kitabına, "Bizim zamanlarda" («В наше время») məcmusuna, "Fiesta", "Əlvida, silah!" romanlarına gedən yolda ilk pillə idi. Bu məşhur əsərlərin ideyası onun bu qəzetdə nəşr etdirdiyi məqalələrlə eyni vaxtda yaranmışdı. Üçüncüsü, Heminquey sanki intuitiv olaraq hiss edirdi ki, "Star…"dakı fəaliyyəti onun ədəbi-tənqidi publisistikasının mükəmməlləşməsində düzgün istiqamətə yönələn mühit axtarışında yazıçıya kömək edir. Heminquey üçün belə mühit Amerikanın böyük şəhərlərindəki həyat, onu əhatə edən mürəkkəb və ziddiyətli reallığın gizli dərinliklərini hiss etmək imkanı idi. Bu tikanlı yolda gənc yazıçını böyük çətinliklər gözləyirdi. Buna sübut olaraq onun tamamlanmamış (1972-ci ilə qədər nəşr olunmayan) "Sonuncu yaxşı yer" («Последнее хорошее место») hekayəsini göstərmək olar. Heminquey bir neçə dəfə öz məqalələrini Nik Adams təxəllüsü ilə imzalayırdı. Lakin sonralar bir çox tənqidçi və bioqraflar birmənalı olaraq bu ədəbi prototipin məhz Hemiqueyə məxsus olduğunu etiraf etmişdilər. Dördüncüsü, yazıçının təvazökarlığını göstərən bir nüansı qeyd etməmək mümkün deyil. Yuxarıda qeyd olunduğu kimi, "Nik Adams" ədəbi prototipi adı altında imzalanan bəzi qısa reportajları istisna olmaqla, Heminquey anonim yazılar nəşr etdirməyə başlayır. Daha dəqiq desək, o, özünün erkən jurnalist yaradıcılığı dövrünün bioqraflar tərəfindən öyrənilməsi prosesinə mane olurdu, çünki gələcək yazıçı hesab edirdi ki, bu dövrdə yazılmış əsərlər yetərincə mükəmməl deyil və bəzən başdansovdu, tələsik yazılmış qəzet məlumatları gələcək sənətkarın nüfuzuna xələl gətirə bilər. Bu səbəbdəndir ki, Çarlz Fenton yanlışlıqla yalnız məqalələrin altındakı imzalara istinad edərək adı çəkilən kitabda (istin.bax) yalnız bir neçə məlumat əsasında nəticə çıxarırdı. Əslində isə Heminquey daha çox əsərin müəllifidir (müasir amerika tədqiqatçılarının hesablamalarına görə, 50-yə yaxın). Lakin Ç.Fenton 1950-ci ilin ortalarında, yəni hələ yazıçının sağlığında və özünün son günlərinə qədər "Kansas city star"da hansı materialların

E.Heminquey tərəfindən yazıldığını müəyyən edə bilməmişdi. Bizi isə bu suallar maraqlandırır: Həqiqətənmi çoxsaylı publisistik çıxışlar Heminqueyə aiddir? Onu erkən jurnalistika dövründə ən çox nə maraqlandırırdı? O, ilk növbədə daha çox hansı mövzulara diqqət yetirirdi?

Bu məsələ ilə bağlı ayrı-ayrı tənqidi ədəbiyyatların son dərəcə dəqiq təhlili bizi aşagıdakı nəticələrə gəlməyə gətirib çıxartdı. "Yeni əsgərlər üçün bal" («Бал для новобранцев») adlı kiçik məqaləsində yazıçı şəhər hakimiyyətinin reklam etdiyi hadisə - müharibəyə göndərilən yeni əsgərlər üçün mədəni tədbirlərin keçirilməsi üzrə Hərbi Şuranın təşkil etdiyi ilk bal haqqında yazır. İlk baxışdan sanki xüsusi diqqətəlayiq olmayan bir hadisədir, cəbhəyə yollanan gənc əsgərlərin mənəvi ruhunu qaldırmaq üçün hakimiyyət dairələri ruhlandırıcı tədbirlər keçirmək qərarına gəlmişdilər. Siyasi vəziyyət və optimizm, necə deyərlər, "bir qabda". Lakin məqalənin stilistik əlamətlərini də qeyd etmək vacibdir. Bəzi əməkdaşlar öz reportajlarında mətndən kənara çıxa bilmirdilər, amma gənc Hemiquey anlayırdı ki, belə bir mürəkkəb və ziddiyətli imperialist müharibəsi dövründə faktlar qəsdən təhrif edilmiş də ola bilər. Ona görə də bu faktları müxtəlif cür improvizə etmək mümükündür. Bu işdə yeni addımlar atan müxbir Hemenqueyə Amerika ədəbiyatının klassiklərindən, xüsusilə də M.Tven və S.Kreyndən öyrəndikləri kömək etdi. Heminquey əsasən bu klassiklərin romanlarından daha çox onların heç də az olmayan reportajlarına istinad edirdi. Məhz Tven və Kreyndən o, kiçik faktları ümumiləşdirməyi öyrənmişdi. O, reportajın ənənəvi meyarlarından daha çox başqa tərəfləri ilə maraqlanırdı. Adi məişət hadisələrinə sırf informasiya, publisistik kontekstə təbii şəkildə uyğun gələn yeni ədəbiyyat meyarlarını, həyəcan elementlərini daxil etmək lazım idi.

Adıçəkilən məqalədə təsvir olunur ki, bir tərəfdə gənc, gözəl qızlar və yeni əsgər cütlükləri şənlənir, rəqs edir, digər tərəfdə isə göz yaşları içərisində, əsgərlərdən birinə vurulmuş, lakin bahalı rəqs zalına buraxılmayan fahişə peyda olur. Bu paradoksal hal reportaja tamamilə başqa sosial-psixoloji ab-hava gətirir. Çox sevdiyi bir əsgərin gözəl geyimli gənc tələbə qızlarla şən rəqs etdiyi bir vaxtda bahalı rəqs zalının girişində ağlayan kasıb qızın qəmli hekayəsi. Lakin əsl reportaj heç də melodram deyil, daxili məna daha dərindir. Rədd edilmiş sevgi, vida öncəsi çarəsizlikdən tökülən göz yaşları. Tədricən Heminqueyin sosial nöqtyeyi-nəzərdən düşünülmüş şəkildə təhlil etdiyi "əxlaqsız qadın" mövzusu inkişaf etməyə başlayır. Məqaləni oxuyarkən qeyri-ixtiyari olaraq Hüqonun "Səfillər" romanındakı Fantina yada düşür, bəzi sətirlər S.Moemin "Yağış" adlı erkən novellasındakı fahişə Tompson obrazını xatırladır.

Çox zaman Heminquey özünün tənqidi publisistikasında milli şüurun kəskin və aktual problemlərinə toxunurdu. Müharibə dövründə, Amerikada qara dərili əhaliyə ən yaxşı halda ehtiyatlı davranıldığı bir vaxtda, yazıçı öz məqalə və reportajlarında cəsarətlə insan ləyaqəti mövzusunu qaldırmışdır. O illərdə zənciləri müdafiə etmək böyük cəsarət tələb edirdi. 1918-ci ildə "Kansas city star"da nəşr olunmuş "Təcili yardım marşrutunun sonunda" ("В конце

маршрута скорой помощи") adlı oçerkində ağır yaralanmış zənci haqqında oxuyuruq. Ölüm ayağında olan zənci ölüm təhlükəsi ilə üzləşməsinə baxmayaraq, onun həyatına qəsd edən insanların adını detektivə deməkdən imtina edir. Biz əminik ki, bu oçerkdəki zənci obrazı Heminqueyin sonralar qələmə aldığı "Oyunçu, rahibə və radio" («Игрок, монахиня и радио») adlı hekayəsindəki Kaetano obrazının prototipi idi.

Bir çox başqa məqalələrində Ernest Heminquey etibarının itiriləcəyi riskinə baxmayaraq, sadə insanların ağır taleyi, həmçinin idman sahəsində gedən alver haqqında yazır, narkomanlar, cinayət aləmi, yerli polisin səriştəsizliyi, Kanzas-Sitidə amerikalıların hərfi mənada çiçəklənən milli həyat tərzinin qəddarlığı haqqında danışırdı. Heminqueyin ədəbi-tənqidi publisistikasının tematik palitrası çox rəngarəng idi: məsələn, Heminquey gənclik dövrlərində idmanı çox sevirdi, boksla məşğul olurdu. "İdmanı sevən mer" adlı məqalə də belə yaranmışdı. Öküzlərin döyüşünə "Pamplona iyulda" adlı məqaləsini həsr etmişdi. Amerikada səfərə çıxarkən yazıçı tez-tez təkcə yüksək inkişaf etmiş sivilizasiya ilə deyil, həm də təmizlik, düzlük, alicənablıq, saflıq və nəzakətin çox az rast gəlindiyi Amerikanın geniş çöllərinin, preriyaların hakimiyyət dairələri ilə qarşılaşırdı. "Vəhşi Qərb: Çikaqo" məqaləsi məhz belə yaranmışdı. Bir sıra yazışmalar və reportajlara da adlar verilirdi: "Biq-River 2-də" (yəni reportajlar, informasiyalar müəllif tərəfindən həmin rayonun adına uyğun olaraq adlandırılırdı). "Kerenski – milçək çəkisində olan boksçudur" adlı oçerkində Heminquey qəzet paylayan adi kiçik bir oğlandan bəhs edir. Taleyi bu oğlanın üzünə heç gülmürdü, bir az pul qazanmaq üçün o, döyüşməyə hazır idi, dar düşüncəli və qana susamış kütlə isə yaxşı pula əsl qanlı döyüş görmək arzusunda idi. "Lakin döyüşün taleyinin necə həll olunacağından asılı olmayaraq, pullar onsuz da yarı bölünürdü" (3, 357). "Polis dəstələrinin toqquşması" adlı kiçik reportajda polislərin gözü qarşısında narkotik alveri ilə məşğul olanların cəzasız qalmasından bəhs olunur.

Redaksiyanın tapşırığına əsasən, işə yeni başlayan müxbir sosial-siyasi ədalətsizliyin bir sıra eybəcər təzahürləri ilə üz-üzə gəlir, burada zərərçəkmişlərə onların maddi vəziyyətlərindən irəli gələrək yardım göstərilirdi. Müəllif kinayə ilə qeyd edir: "Təbii haldır ki, burada necəsə, amma müalicə edirlər, yalnız müalicə - təmiz çarpayı, dərman və bir də viski deməkdir, başqaları, yəni kasıblar üçün isə bu, qəbiristanlıqda yerdir" (3, 378).

Diqqətəlayiq haldır ki, "qaynar izlərlə" yaranan bir sıra məqalələr, yazışmalar, qısa məlumatlar, reportajlar Heminqueyin hekayə və povestlərinin əsasını təşkil edirdi. 1961-ci ildə yazıçının ölümündən sonra, onun yaradıcılıq irsi milli sərvətə çevrildi, bioqraflar Heminqueyin 50-ə yaxın kiçik nəşrlərini əldə edə bildilər. Müəyyən edilmişdir ki, məqalələrinin müəyyən bir hissəsi onun "Bizim zamanlarda" adlı hekayələr kitabının əsas mənbəyi olmuşdur.

Yarım ildən artıq yuxarıda adı qeyd olunan qəzetdə peşəkar müxbir kimi çalışdığı müddətdə E.Heminquey sürətli addımlarla böyük ustalıq məktəbini keçmiş, peşəkar publisist üçün zəruri olan jurnalist bacarıq və vərdişlərinə

yiyələnmişdir. “Star ...”da Hemiquey sonralar, bilavasitə yazıçılıq fəaliyyətinə başladıqdan sonra, ona lazım olacaq vacib həyat materialını əldə edə bilmişdi. Bizim bu kiçik məqaləmizdə bütün qeyd olunanlar - Heminqueyin “Kanzas-Siti” üçün topladığı həmin ədəbi-tənqidi publisistikasının yalnız kiçik bir hissəsidir.

## ƏDƏBİYYAT


1. Мелентьева Е.М. Язык публицистики Эрнеста Хемингуэя: Автореф.: дисс. канд. филол. наук. Одесса, 1981, 24 с.
2. Хемингуэй Э. Последнее хорошее место // Неделя, 1979, № 29, с. 8-15.
3. Хемингуэй Э. Собрание сочинений в 7-ми томах. Т. 7. Райский сад. Рассказы разных лет. Очерки. Статьи. М.: АСТ, 2010, 667 с.
4. Carlos Baker. Ernest Hemingway. F Life story. New-York, 1969, 279 p.
5. Fenton Charles A. Apprenticeship of Ernest Hemingway. The Early Years. New-York, 1954, 221 p.
6. Mott Frank Luther. American Journalism. New-York, 1962, 512 p.


## РАННЯЯ ЛИТЕРАТУРНО - КРИТИЧЕСКАЯ ПУБЛИЦИСТИКА Э.ХЕМИНГУЭЯ


**Н.Т.МИРЗОЕВА**


### РЕЗЮМЕ


В статье рассматривается ранняя журналистская деятельность Э.Хемингуэя, которая повлияла на все творчество писателя. Особо отмечается, что литературно-критическая публицистика писателя сформировала его стиль и жизненные установки. В дальнейшем она стала опорой для его повестей и романов. В статье рассматривается деятельность писателя в газете «Kansas city star», где писатель в своих критических статьях затрагивал острые и злободневные проблемы национального самосознания, тему человеческого достоинства, писал о нелегких судьбах простых людей.



**Ключевые слова:** публицистика, журналистика, школа профессионализма, статьи, корреспонденции, “Kansas city star”.


## EARLY LİTERARY - CRİTİCAL PUBLICATIONS OF ERNEST HEMİNGWAY


**N.T.MİRZAYEVA**


### SUMMARY


The article discusses the early journalistic activity of Hemingway, which influenced all works of the writer. It is especially noted that the literary-critical journalism of the writer formed his style and attitudes. Later, he became a prop for his stories and novels. The article discusses the activities of the writer in the newspaper "Kansas City Star", where the writer in his critical articles touched upon the acute and topical problems of national consciousness, the topic of human dignity, wrote about the hardships of ordinary people.



**Key words:** journalism, school of professionalism, articles, correspondence, “Kansas City Star”